**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

# İgid ömrü

## (On beşinci yazı)

### Cabbar: "Kürkümü çıxarıb sərdim yerə ki, Zamini üstünə qoysunlar"

...Mərdəkana tələsirəm. Füzulinin döyüş, əqidə dostları İman Allahverdiyevlə Füzulinin dünyamızdakı sonuncu anlarının şahidi Cabbar Cəfərovun burada məskunlaşdığı sorağını almışam. Qədim qəsəbənin mərkəzində, əvvəlcədən telefonla danışdığımız kimi, Cabbar qarşılayır məni. Doğması kimi. Onunla İmanın iş başında olduğu seçki məntəqəsinə yan alırıq. Yolboyu Cabbardan bir sıra məlumatlar alıram. Füzuli barədə həyəcanla danışmağa başlayır. Bu təbiidir. Təcrübəm düşünməyə əsas verir ki, bir azdan qaydasına düşəcək dialoqumuz. Bax belə... İndi o, suallarımı çox həvəslə cavablandırır:

Cabbar:

- Biz onu elə Zamin kimi tanımışıq. Əsl adının Füzuli olduğunu gəlib burda bilmişəm.

- Məlum. Siz əvvəldən Xocalıda yaşayanlardan olmusuz, yoxsa bir çoxları kimi sonradan köçüb gəlmisiz ora?

- Yox, sonradan gəlməmişik. Mən elə Xocalıda doğulmuşam, orda da böyümüşəm. (dərindən ah çəkərək!!!) Daha doğrusu, elə orda da qocalmışam. Baxmayaraq ki, 59 yaşıma hələ indi çatıram...mən 28-30-35 il bundan qabaq qocalmışam...

- Amma Füzulini yəqin ki, babası Kərim kişi gəlib Xocalıda məskunlaşandan və Füzuli ilə bacısını da öz yanına gətirəndən sonra tanımısınız...

- Bəli. O zamandan tanımağa başlamışam Zamini. Həm də tanımamaq mümkün deyildi onu. Zamin özünü qoçaqlığı, qorxmazlığı ilə təkcə mənə yox, bütün xocalılılara tanıtmış və sevdirmişdi. Ermənilər əleyhinə bir döyüşümüz, bir planımız, bir fəaliyyətimiz belə Füzulisiz baş tutmayıb. Hamısının o, mütləq iştirakçısı, əksəriyyətinin isə plan-proqnozunun, belə deyək ki, ideya müəllifi olub.

- Cabbar, sən mənə Füzulini son anda - yaralı durumda görmüş dostlarından biri kimi də maraqlısan. Onu sənin paltona bükülbər yaralanmış halda çıxaranda...

- Hə. Gördüm ki, gətirirlər. Dörd tərəfdən belə tutublar (əli ilə göstərir - N.Z.).

- Hardan gətirirdilər?

- Qaraqayadan.

- Deməli, dəqiq Qaraqayada vurmuşdular onu?

- Bəli-bəli, Qaraqayada.

- Mən Adilə adlı qadını danışdırmışam. Adilə xanım söylədi ki, bax sizin Füzulini yaralı vəziyyətdə gördüyünüz o ana qədər Füzuli onlara bələdçilik edib gətirib. Onlara söyləyib ki, artıq dördüncü dəfədi gecəylə bu yolu qayıdıb həmkəndlilərinə bələdçilik edir o müdhiş gecədə. Amma Nazim deyir ki, o, növbəti dəfə insanları Ağdama gətirib çıxaran zaman orda Mehdi adlı bir xocalılı deyib Nazimi vurdular, biz onun meyitinin üstündən keçib gəldik, bu dəfə Füzuli məhz dostunun meyitinin arxasınca getmək üçün geriyə qayıdır. Artıq neçənci dəfə qayıtdığını dəqiq bilmirik, bunun bir o qədər önəmi də yoxdur, əsas odur ki, Füzuli bu dəfə daha başqa bir azərbaycançılıq dəyəri nümayiş etdirərək, dostunun meyitinin sorağıyla yenidən düşmən qabağına - od-alovun içinə dönür və burda da düşmən gülləsinə tuş gəlir...

- Nazimi də yaxından tanıyıram. Nazim yalan danışmaz. O da qəhrəman oğlandı. Nazim də xeyli adamı çıxarıb. Mən də o cümlədən. Anamgili gətirib ötürəndən sonra, Teymur kişi vardı, adına "poçt Teymur" deyirdilər, onu da çıxartdım. Onunla yanaşı nə qədər qadın, uşaq çıxartdıq. Onu dəqiq deyə bilmərəm neçənci dəfəydi, ancaq qayıdanda gördüm ki, Zamini çıxarırlar, bu əziyyət çəkir. Mənim də əynimdə kürküm vardı. Çıxartdım sərdim yerə ki, üstünə qoysunlar. Bir az da "qorxma-qorxma" deyib ürək-dirək verdim ona.

- Danışa bilirdi?

- Elə belə. Çox çətinliklə.

- Güllə boğazından dəymişdi?

- Hə. Birtəhər gətirdik xəstəxanaya. Sağ gətirdik. Bir-iki söz dedi çətinliklə. Onları böyüdən Səkinə xalasını soruşmuşdu deyəsən. Allah rəhmət eləsin! Çox danışa bilmirəm bu barədə. Yadıma düşən kimi kövrəlirəm.

- Necə olsa da danışmalıyıq ki, yazılsın bunlar, gələcək nəsillərə də çatsın. Üstəlik, daha bir məsuliyyət də var bizim çiynimizdə. Bu da onun bacısından, dostlarından savayı kimsəsinin, bir övladının belə qalmaması ilə bağlıdır. Bu adamı bütün varlığı-yoxluğu ilə bu xalq çiynində daşımalı, yaşatmalı, rəhmət oxumalı, onun gerçəklikdən qidalanan qəhrəmanlıq dastanını yaddaş-tarixçə kimi gələcəyin azərbaycanlılarına çatdırmalıdır...

- Təbii ki, müəllim, onun əziyyətlərini bir kimsə dana bilməz. Zamini xatırlamamaqsa ümumiyyətlə günah olar. Sadəcə deməyim o idi ki, kövrəldiyimə görə danışmaqda çətinlik çəkirəm. Mənə elə gəlir, İmanın yaddaşı daha güclüdü, o daha çox şeyləri danışa bilər Füzuli haqqında.

- İndi onu da dinləyəcəyik. Ümumiyyətlə çalışaq yalnız müsahib kimi tək-tək danışmayaq. Qoy söhbət xarakteri alsın qarşılıqlı fikirlərimiz. Fiqurə xanımın sözlərindən belə anlaşıldı ki, Füzuli daha çox ev adamı deyil, çölbayır adamı olduğundan, onun haqqında da ailə üzvlərindən çox dostları geniş, həmçinin detallı məlumat verə bilərlər. Mən də bunu əsas götürüb sizin yaxşı tanıdığınız həmyerlilərinız Nazimi də danışdırmışam, Eldarı da, Bəhramı da, başqalarını da. İndisə sizinlə görüşümüz baş tutub...

Cabbar:

- Üzr istəyirəm bu ifadəyə görə, ancaq deməyə məcburam ki, onun haqqında kimsə danışmırsa və ya danışmaq istəmirsə, onun heç insanlığı yoxdu (axtarışlarım zamanı, təəssüf ki, Cabbarın dediyi bəlləri ilə də rastlaşası olmuşdum - N.Z.). Çünki o çox əziyyətlər çəkib. Bildiyi, tanıdığı yerə də gedib, tanımadığı yerə də. Hər yerə can atıb, hər yerdə də özünü qabağa verib.

Bəzən "Vətəni, torpağı, yurdu, namus-qeyrəti canından artıq sevənlər"ə nümunələr axtarırıq. Onların haqqında deyilib-yazılanları əksərən şişirdilən, pafoslu cümlələrdən alırıq. Bu pafoslu yanaşmalarsa çox zaman oxucunu, dinləyicini, tamaşaçını diksindirir, hamılıqla onun həqiqəti yamsıladığını, imitasiya etdiyini yəqin edirik. Amma görün sizləri nə boyda gerçəkliklə baş-başa buraxıram, əziz oxucular! Görün qəhrəmanlıqlar bizim içərimizdəki nə qədər oğulların qanında, genində yaşayır. Nəticəni mənim bənzətmələrimdən yox, Füzulinin döyüş dostlarının dilindən eşidib qənaətinizi yaradın. Mən həm bu dostlara, həm də sizlərə uyğun şəraiti yaratmaqdan ötrü bu yola çıxmışam. Nümunələrə diqqət edin: kimsəsiz Füzulinin insani, vətənpərvər, igid xarakterinə mütəxəssislərdən tutmuş, ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adının verilməsi, əslində xocalıların böyük əksəriyyətinin tələbilə bu fəxri adın təqdimatının verilməsi anlamlarına qədər. Orda bitib-qurtarıb Füzulinin yaşam və axirətdə özünə yer etmiş dünyası. Bitib ki, əbədi doğulsun! Bunlar mənim həmsöhbətlərimlə təmaslarım zamanı faktlardan doğulan düşüncələrimdəndir...

### İman: "Krunk"un 55 üzvündən biri - Yeqlaryan Volodya bizim fabrikdə işləyirdi"

Söhbətimizə isə Füzulinin dostu və qohumu olduğunu söyləyən İman Allahverdiyev qoşulur bu anda. İman ali təhsil aldıqdan sonra Xankəndidə mebel fabrikində ermənilərlə birgə fəaliyyət göstərmiş o zamanın gənc kadrlarından olub. İmanın fəaliyyət dairəsi də Qarabağ hadisələrinin başlandığı, erməni nankorluğunun büruzə verildiyi zamanlar baş verən hadisələrin, təxribatların bir qisminə aydınlıq gətirməyə əsaslar vermiş olur. Xatırladıram ki, İman həm də Xocalı aeroportunu Füzuli ilə birgə partladanlardandı. Onun danışdıqları Füzuli haqqında əvəzsiz mənbələrdəndi.

İman:



- Füzuli bizim qohumumuzdu. Dayıoğlu, dayınəvəsi düşürük. Onun lap uşaqlığını xatırlayıram. Füzuli çox çılğın, emosional bir uşaq idi. Tez-tez bizə gələrdi.

- Üzr istəyirəm, Füzuli sizinlə dayıoğlu necə ola bilərdi? Onun atası Naxçıvandan, lap əvvəli isə Dərələyəz mahalından - Qərbi Azərbaycandan gələnlərdən olub...

- Elə qohumluğumuzun kökü də buna bağlıdı. Bizim də əslimiz dediyiniz həmin Dərələyəz mahalındandı. Ona görə biz Füzulinin atasına da, babası Kərim kişiyə də qohumuq. Kərim kişi mənim atamın dayısıdı. Həm də Kərim kişi çox istiqanlı, ünsiyyətcil qohumlardan idi. Bəzən qohum olur, o qədər soyuqqanlı olur ki, onu yaddan çıxarırsan. Kərim kişi isə çox yaxşı, əsl, əlaltı və qohumcanlı adam idi. Elə Füzuli də istiqanlılığı ilə tanınmamışdımı?!.. Bunlar gendənqandan gələn məsələlər idi. Bax, Füzulini böyüdən Səkinə xalası var ha, onun bizim evlərimizə qonaq gəlməsi ilə bizdə yaranan gözəl, mehribançılıq ab-havasını görsəniz, mənim dediyim bu istiqanlılığın nə demək olduğunun tam mənasilə şahidinə çevrilərsiniz.

Füzulinin özünə gəldikdə isə, o, dediyim kimi, çox qeyri-adi bir uşaq idi. Mən işgüclə ələqədar onu uşaq vaxtı daim görə bilmirdim, amma hər görüşümdə bu uşaqda nə isə qeyri-adi bir bacarıqmı, hamıda olmayan qeyrət hisslərimi, nəsə kəşf edirdim mütləq.

- Harda işləyirdiniz o zaman siz?

- Qarabağda hadisələr başlayana qədər ali məktəbi bitirib Stepanakertdə mebel fabrikində işə düzəlmişdim gənc mütəxəssis kimi. Bəzən orda qalırdım, bəzənsə gəlirdim Xocalıya evimizə. Orda əvvəlcə mühəndis kimi işə başlamışdım, sonra sexdə usta, nəhayət texniki şöbənin rəisi oldum. Deməyim budur ki, hadisələr başlayanda çox şeylərin şahidi oldum. Orda mənə qarşı təxribatlar törətdi ermənilər. Hətta ölümlə üzüzə dayandığım məqamlar oldu. İndi fikirləşirəm ki, həqiqətən bəlkə də ağılsızlıq edirmişəm orda qalıb işləməkdə, çünki təsadüflər nəticəsində sağ qaldım. Amma bütün təxribatlara baxmayaraq tərk etmirdim iş yerimi. Hətta ermənilərin özləri də buna görə məəttəl qalmışdılar ki, bu adam görəsən niyə getmir burdan? Hamını qovmuşdular, mən hələ də orda - işimin başındaydım. Fabrikdə təxminən 360 adam işləyirdi, hamısı ermənilər idi, yeganə azərbaycanlı mən qalmışdım.

Bir dəfə hay gəldi ki, Ağdam gəlir guya bunların üstünə, inanın, fabrikdəki bütün işçilər çıxıb qaçırdı ki, neyləyəcəyik?! Mən də, Cabbar, bunlarla lağlağı eləyirdim ki, qorxmayın-qorxmayın, gələndə imkan verməyərəm sizə toxunsunlar. Belə epizodlar bir dəfə yox, çox baş vermişdi. Amma Sumqayıt hadisələri törədiləndən sonra Sumqayıt ermənilərindən Xankəndiyə köçənlərdən bizim fabrikə işləməyə gələnlər oldu. Ondan sonra vəziyyət, xüsusilə bizim fabrikdə, çox gərginləşdi. Bir də "Krunk"un 55 nəfər üzvündən biri bizim fabrikdə işləyirdi. Yeqlaryan Volodya. Onunla yola getmək çox çətin idi həmin günlərdə. Onlar necə təbliğat apardılarsa, bir həftənin içində heç kim işdə mənə salam verib-almadı. Təbliğat nələrdən ibarət idi? Birinci deyirdilər ki, İman şəhərdəki azərbaycanlılara silah paylayır. Bu bir az yumşaq formada deyilirdi. Çünki içərisində inanlarla yanaşı, inanmayanlar da vardı. Sonra söz yaydılar ki, İman Sumqayıt hadisələrində iştirak edib, hətta şəkilləri var sübut kimi, orda bizim ermənilərı öldürüb və s. Ona görə bir həftə içərisində mənim sexlə əlaqəm kəsildi, ancaq texniki heyətlə və rəhbərliklə görüşə bilirdim. Çünki sexdə işləyən azərbaycanlıların üstünə taxtatuxta atmaqla onları bezdirib qaçırtmışdılar artıq. Bircə mən qalmışdım orda. Mənimlə bir otaqda Stepanakert şəhər milis şöbəsinin keçmiş rəisi Aram Avakyan otururdu. Fabrikin hüquqşünası işləyirdi. Çox savadlı adam idi, həm də rus dilini yaxşı bilirdi. Ancaq aramızda "pərdə" saxlayırdıq, çalışırdıq o sahələrə girməyək.

- Yəni milli məsələlərə...

- Hə, milli məsələlərə. Əlqərəz, bu adamla otaqda otururub, əslən Xocalıdan olan iki nəfər, Albert və Elbrusla söhbət edirdik. Onların ataları azərbaycanlı, anaları erməni idi. Çoxdan orda yaşayan idilər, ikisi də erməni qızları ilə evlənmişdilər. Bu zaman bir dəstə adam gəlib girdi içəri. Bu dəstə elə bir atmosferdə içəri girdi ki, gördüm yox, "bu hənə artıq o hənədən deyil". Cavan oğlanları yığıb göndəriblər, idmançı görkəmində, bazbrutlu-filan. Bir neçəsini də tanımıram, onlar Sumqayıtdan gələnlərdi, azərbaycanca da, ermənicə də, rus dilində də sərbəst danışırlar. Birinci sözləri rus dilində bu oldu: davay naçalnik, sobiraysa, uxodi otsyuda (rəis, yığış, get burdan - N.Z.). Mən də başladım soruşmağa ki, nə baş verib? Bax belə. Bu vaxtdan bütün addımlarımı izləməyə başladılar. Sonra getdim təhlükəsizlik orqanının rus millətindən olan rəisinə şikayət etdim. Onu da dedim ki, fabrikdə belə-belə hərəkətlər edirlər, "Krunk"-un üzvləri var. O da bir kəlmə ilə cavab verdi ki, ərizə ver, biz onlarla tərbiyəvi iş aparaq, xeyri olmasa başqa tədbirlər də görərik. Vəssalam. Mən onun qəbuluna gedəndən sonra vəziyyət bir qədər də pisləşdi. Bir gecə də növbədə olarkən mənim həyatıma qəsd etmək istədilər, alınmadı, Allah məni qorudu. Amma artıq sona yaxınlaşırdı. Bundan sonra da bir-iki epizod baş verdi. Daha qalmaq mümkün deyildi. Yığışıb gəldim Xocalıya.

- Aydındı. Bunun söhbətimizə bir o qədər dəxli olmasa da soruşum, Albertlə Elbrus qalıb orda yaşadılar?..

- Hə, qalıb yaşadılar. Onların anaları, arvadları erməni idi deyə, onlara toxunmadılar. Amma sonralar Elbrus köçüb gəlmişdi Bakıya. Onu Bakıda gördüm. Deyəsən sonradan arvadını Bakıdan qaçırtmışdı. Belə eşitdim ki, evinə giriblər, hədələyiblər-filan, o da qorxub arvadını ölkədən çıxarıb.

Yenə İman:

- Füzuli, dediyim kimi, çılğın və istiqanlı bir uşaq idi.

Cabbar xatırlatma verir:

- Kəndin başında, ya ayağında deyəydin ki, bir hadisə baş verib, nəsə olub, Zamin bir neçə dəqiqəyə özünü həmin yerə çatdırmalıydı. Necə gəlirdi, necə çatırdı, bilmirdim. O qədər qaynar uşaq idi ki, həm də cavan idi də. Hələ şəhid olanda uşaq idi, onun nə yaşı vardı ki (kövrəlir)...

Sovxozda işləyirdi. Bir az işləməyə də çəlimsiz idi, amma qırqayışdı (bu söz zirək mənasını bölüşür - N.Z.). Onunku o idi ki, tezbazar həll eləsin öhdəsindəki işi. Deyirdi nəyi deyirsiz gedim həll eləyim, ancaq mənə deməyin bunu qaldır burdan bura qoy.

- Aeroportu partladıblar. İman da iştirakçılardan olub...

***(ardı var)***

***Nəzirməmməd ZÖHRABLI***
***jurnalist-publisist***